# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri

## 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

(Əvvəli 1-ci səhifədə).

> ***Qəbələ rayonunun sürətli inkişafı ulu öndərimiz Heydər Əliyevin bu rayonun gələcəyi ilə bağlı müəyyən etdiyi inkişaf proqramının nəticəsidir. Qəbələdə çəkilən yollar, salınan parklar və xiyabanlar, tikilən yeni binalar və sənaye müəssisələri həmin proqramın real həyatımızda təsdiqidir.***
>
> **İlham ƏLİYEV.**

Digər önəmli göstərici kənd təsərrüfatının inkişafı olduğunu deyən cənab İlham Əliyev bildirmişdir ki, kənd təsərrüfatında da görülmüş operativ tədbirlər nəticəsində aqrar sektorun inkişafı təmin edilmiş və kənd təsərrüfatı məhsullarının istehsalı 2,6 faiz artmışdır.

Nazirlər Kabinetinin iclasında cənab İlham Əliyev bildirmişdir ki, ötən il sosial məsələlərin həlli yenə də diqqət mərkəzində olmuş, maaşlar 7, pensiyalar 8 faiz artmışdır. Bununla yanaşı, kommunal xidmətlərin diferensiallaşdırılması da sosial ədalət prinsipinə əsaslanmış, orta təbəqənin maraqları nəzərə alınmışdır. Sosial siyasətin tərkib hissəsi kimi 485 məktəb təmir olunmuş, 29 yeni məktəb tikilmiş, 41 tibb müəssisəsi tikilib və ya təmir edilmişdir. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılmışdır. Bundan əlavə, “ASAN xidmət” mərkəzlərinin sayı 11-ə çatdırıldığını, indiyə qədər bu mərkəzlərə 13 milyon müraciət daxil olduğunu, göstərilən xidmətlərin sayının artırıldığını, həmçinin “ASAN Viza”nın fəaliyyətə başlaması ilə əlaqədar ölkəmizə turist axınının daha da sürətlənməsinə geniş imkanlar açıldığını və nəticədə 2016-cı ildə Azərbaycana gələn turistlərin sayının 11 faiz artdığını bildirmişdir.

Ötən il beynəlxalq əlaqələrimizin daha da genişləndiyini qeyd edən cənab İlham Əliyev 2016-cı ildə ölkəmizə 20-yə yaxın dövlət və hökumət başçısının səfər etdiyini, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndiyini bildirmiş, Azərbaycan torpaqlarının işğaldan azad olunması və BMT-nin 4 qətnaməsinin yerinə yetirilməsi ilə bağlı Azərbaycanın mövqeyinin dəyişməz qaldığını vurğulamışdır. 2016-cı ilin aprelində təmas xəttində baş verən döyüşlərə toxunan dövlət başçısı əks-hücum əməliyyatı nəticəsində ordumuzun düşmənə sarsıdıcı zərbələr vurduğunu və minlərlə hektar torpağın işğaldan azad edildiyini də bildirmişdir.

Keçən il beynəlxalq əlaqələrin daha da genişləndiyi, Azərbaycanın uzun illər ərzində beynəlxalq aləmdə artıq çox etibarlı, ləyaqətli tərəfdaş kimi tanındığını və xüsusilə son illər ərzində dünyada böhranların, müharibələrin, qeyri-sabit vəziyyətin genişləndiyi bir şəraitdə bizim nümunəmizin əlbəttə ki, daha çox diqqət cəlb etdiyini və bizə daha böyük rəğbətlə yanaşıldığını da qeyd etmişdir.

2016-cı ilin vacib hadisələrindən danışarkən cənab İlham Əliyev “Cənub” qaz dəhlizinin və “Şahdəniz-2” layihəsinin icrası ilə bağlı bütün addımların atıldığını, TANAP layihəsinin böyük hissəsinin icra edildiyini, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı tədbirlərin görüldüyünü diqqətə çatdırmışdır. 2016-cı ildə idmançılarımızın Rio Olimpiadasında tarixi nailiyyətə imza atdığını deyən dövlətimizin başçısı sentyabrda baş tutan referendumun nəticələrindən də danışdı. Onun xalqımızın iradəsini əks etdirdiyini diqqətə çatdırdı. Ötən ilin ölkəmizdə “Multikulturalizm ili” elan edildiyini vurğulayan cənab İlham Əliyev 2016-cı il çərçivəsində Bakıda bir neçə mötəbər beynəlxalq tədbirlərin keçirildiyini, Roma Papasının ölkəmizə səfəri zamanı verdiyi bəyanatların bir daha Azərbaycanın önəmini təsdiqlədiyini qeyd etmişdir.



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qəbələ rayonuna səfəri.*

**Hörmətli yığıncaq iştirakçıları!**

2016-cı ilin ötən dövrü bütün ölkədə olduğu kimi, Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında əlamətdar hadisələrlə zəngin olmuşdur. Bunlardan ən yadda qalanı isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ötən il avqust ayının 10-da rayonumuza səfəridir. Səfər zamanı dövlət başçısı bir çox mühüm sosial və iqtisadi xarakterli obyektlərin açılışında iştirak etmiş, inşası davam edən tikintilərdə işlərin gedişi ilə maraqlanmışdır. Cənab Prezident rayonumuzda görülmüş işlər barədə fikirlərini bildirərək, müvafiq tapşırıqlar vermiş, qarşımıza yeni vəzifələr qoymuşdur.

Müstəqil Azərbaycanımızın dövlətçilik tarixində növbəti böyük siyasi hadisə olan Konstitusiyaya təklif edilən dəyişikliklər və əlavələrə dair keçən il keçirilən ümumxalq səsverməsində (referendumda) müdrik xalqımız növbəti dəfə Heydər Əliyev siyasi kursuna, inkişafa, tərəqqiyə, sabitliyə, ölkəmizin daha firavan gələcəyinə səs vermişdir.

Sentyabrın 26-da yüksək demokratik şəraitdə keçirilən səsvermədə Qəbələ seçiciləri də hər zaman olduğu kimi böyük siyasi fəallıq göstərmişlər. Rayon üzrə mövcud olan 78 səsvermə məntəqəsində 63.689 seçicidən 47.517 nəfəri (74,6 faiz) bu siyasi kampaniyada aktiv iştirak edərək, ümumxalq səsverməsinin yüksək səviyyədə keçirilməsinə öz töhvələrini vermişlər. Səsvermədə iştirak edən seçicilərin 43.557 nəfəri (91,67 faiz) dəyişikliklərin və əlavələrin lehinə səs vermişdir.



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qəbələ Regional “ASAN xidmət” Mərkəzinin açılışı zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü.*

(Ardı 3-cü səhifədə).